# Sumqayıt Dövlət Universitetinin Dayanıqlı İnkişaf Komitəsinin ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Sumqayıt Dövlət Universitetinin Dayanıqlı İnkişaf Komitəsi (bundan sonra - Komitə) universitetin dayanıqlı inkişaf məqsədlərinin (bundan sonra DİM-lər) təyin edilməsi, planlaşdırılması, icrası, monitorinqi və qiymətləndirilməsi üçün məsuliyyətli bir qurumdur. Komitə, universitetin ekoloji, iqtisadi və sosial baxımdan dayanıqlı olmasını təmin etmək üçün fəaliyyət göstərir.

1.2. Komitə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının Qanunlarını, Sumqayıt Dövlət Universitetinin Nizamnaməsini və BMT-nin 1 yanvar 2016-cı il tarixində rəsmi şəkildə qüvvəyə minən Dayanıqlı İnkişaf Məqsədlərini rəhbər tutur.

1.3. Komitə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən universitetin digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Tərkib

2.1. Komitənin tərkibi sədr, katib və 7 üzvdən ibarətdir;

2.2. Komitənin sədri, Komitənin tərkibini təsdiq edir və Komitənin iclaslarını təşkil edir;

2.3. Komitənin katibinin vəzifələrindən biri Komitənin iclaslarının protokollarının hazırlanması;
2.4. Komitənin fəaliyyətinə dair məlumatların toplanması, Komitənin üzvləri ilə əlaqələrin saxlanılması və digər administrativ işlərin görülməsi daxildir.

## 3. Məqsəd və vəzifələri

3.1. Komitə, universitetin ekoloji, iqtisadi və sosial baxımdan dayanıqlı olmasını və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunlaşmasını hədəfləyir.

3.2. Komitənin əsas vəzifələri aşağıdakılardır:

- Universitetin DİM-lərini və prioritetlərini müəyyənləşdirmək və yeniləmək;

- Universitetin DİM-lərə uyğun təhsil, elmi və sosial tədbirlər təşkil etmək, proqramlar hazırlamaq və dəstəkləmək;

- Universitetin DİM-lərə uyğun monitorinq və qiymətləndirmə mexanizmlərini tətbiq etmək və nəticələri təhlil etmək;

- Universitetin DİM-lərə uyğun hesabatlarını hazırlamaq və təqdim etmək;

-Universitetin DİM-lərə uyğun əlaqələrini və tərəfdaşlıqlarını inkişaf etdirmək, möhkəmləndirmək.

## 4. İş Qaydaları

Komitənin iş qaydaları aşağıdakılar kimi müəyyənləşdirilir:

- Komitənin iclasları Komitənin sədri tərəfindən təşkil olunur və aparılır, Komitənin katibi tərəfindən üzvlərə bildirilir;

- Komitənin iclaslarının keçirilməsi ildə ən azı iki dəfə nəzərdə tutulur və Komitənin üzvlərinin səs çoxluğu ilə  qərar qəbul edilir;

- Komitənin iclaslarının protokolları Komitənin katibi tərəfindən hazırlanır və sədr tərəfindən təsdiq edilir;

- Komitənin fəaliyyətinə dair məlumatlar Komitənin katibi tərəfindən toplanır;

- Komitənin fəaliyyətinə dair hesabatlar Komitənin katibi tərəfindən hazırlanır.

Bu Əsasnaməyə dəyişikliklər və əlavələr Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən aparılır.

Sumqayıt Dövlət Universitetinin Dayanıqlı İnkişaf Komitəsinin Əsasnaməsi Sumqayıt Dövlət Universitetinin Elmi Şurasının 25.10.2022-ci il tarixli iclasında (protokol №02) qəbul edilmişdir.